**UOT 745/749**

**Mahizər Bayraməli qızı Məhərrəmova**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**Doktorant**
**E-mail: maka1992.mm@gmail.com**

# MÜASİR AZƏRBAYCAN XALÇALARINDA OBRAZ TƏSVİRLƏRİ VƏ ƏNƏNƏVİLİK

**Xülasə:** Məqalədə müasir dövrümüzdə fəaliyyət göstərən xalçaçı rəssamların yaradıcılığında obraz və təsvirlə həll edilmiş kompozisiyaların əsas bədii xüsusiyyətləri açıqlanmışdır. Eləcə də ənənəvi xüsusiyyətlə, milli ornament ə naxış kompozisiyalarının müxtəlif formalarla özünü göstərməsi, Azərbaycan xalça məktəblərinin xalçaçılarımıza göstərdiyi təsirlər haqqında da konkret məlumat verilmişdir. Bu məqsədlə K.Əliyevin "H.Əliyevin portreti", E.Mikayılzadənin "H.Əliyev", M.Hüseynovun "Füzuli dünyası", M.Hacıyevanın "Əməkdar geoloq Nüsrət Xəlilovun portreti", A.Rəcəbovun "Münəccimlər", "Çövkən oynayan şahzadə" və digər əsərlər üzərində aparılmış yığcam təhlillər məqalənin məzmununu daha maraqlı etmişdir.

**Açar sözlər:** xalça, rəssam, ornament, element, naxış, kompozisiya, ənənəvi

Xalçaçılıqda portretlərin yaradılması son dövrlərdə daha da populyarlaşaraq inkişaf xəttini daha da artırmışdır. Bu xüsusiyyəti Azərbaycan xalçalarına da aid etmək mümkündür. Tanınmış insanların portret təsvirlərini əks etdirən xalçalarda bu zaman meydana gələn yeni ornamentasiya xüsusiyyətlərini həmin insanın məşğul olduğu sahə ilə əlaqədar nişanların, simvolik işarələrin əks ilə əlaqələndirmək olar. Lakin burada ənənələrdən geridə qalma kimi fikrin irəli sürülməsi olduqca yanlış olar.

Müxtəlif xalçalar üzərində aparılan araşdırmalar müasir dövrümüzdə fəaliyyət göstərmiş bir çox sənətkarların müəlliflik etdiyi xalçalarda olduqca məsuliyyətli olan bu janrın öhdəsindən uğurla gəldiklərini sübut etmişdir. Bu uğurun əsas səbəblərindən biri isə portretlərin, yeni ornament xüsusiyyəti ilə özünü göstərən simvollaşdırılmış elementlərin novator təsirləri meydana çıxarması ilə yanaşı, xalçaçı-rəssamlarımızın sadiq qaldıqları böyük bir tarixi yol keçmiş xalça ənənəsinin təsirləri, milli bəzək elementlərinin istifadəsi də birmənalıdır [1, s.27].

Qeyd olunanlara parlaq misal olaraq görkəmli xalçaçı, Xalq rəssamı Kamil Əliyevin 1998-ci ildə yaratdığı ölməz rəhbər Heydər Əliyevin xatirəsinə həsr edilmiş portreti göstərmək olar. Əsərdə dahi öndərin realist portreti XX əsr

Azərbaycan portret janrı xüsusiyyətlərinin tam olaraq rəngkarlıqdakı əksi kimi diqqəti cəlb edir General geyimində təsvir olunmuş əvəzolunmaz şəxsiyyətin obrazı qırmızı çərçivə arasında verilmişdir. Rəssam burada istər portretin fonu olsun, istərsə də digər sahələri, burada ənənəvi Azərbaycan xalça ornament xüsusiyyətlərindən uyğun və uğurlu bir şəkildə bəhrələnməyi bacarmışdır. Ana hissədə yerlik olaraq zolaqlarla verilmiş yerlik açıq, bir qədər solğun rəngdə həll edilmişdir ki, bu da əsas olanın xüsusi olaraq qabarıq şəkildə önə çıxmasına xidmət edir. Lakin ana hissə və haşiyələrdə verilmiş bəzək kompozisiyası isə qədim Azərbaycan xalçaçılığının müəyyən qədər Təbriz qrupuna aid əsaslarını özündə əks etdirir. Portretin alt qismində verilmiş kitabə tipli forma göl funksiyasını yerinə yetirməkdədir. Bala haşiyələrin zərif nəbati elementlərindən fərqli olaraq, ana haşiyədə sürməyi yerlik üzərində qızılı, zoğalı bəzəklər beşguşəli ulduzların kiçik medalyon, yarpaq və gül ornamentlərinin üslublaşdırılmış sintezində özünün dolğun kompozisiyasını təqdim edir.

Xalçaçılıqda Heydər Əliyevin qürurlu obraz tərənnümünə çoxsaylı rəssamlar tərəfindən müraciət edilmişdir. Bunlardan görkəmli xalçaçı-rəssam Eldar Mikayılzadənin 2008-ci ildə ulu öndərin portretinin üzərində çalışaraq təqdim etdiyi fərqli kompozisiyanı qeyd etmək olar [2, s.9]. Xalçanın ara sahəsində tam mərkəzdə prezidentin olduqca qürurlu və sarsılmaz obrazı canlanır. Bu qürurlu səhnəni arxa planda verilmiş Azərbaycanın gözəl təbiətini, onun xüsusiyyətlərini, qədimiliyini, tarixiliyini nəzərə çatdıran səhnənin tərənnümüdür. Buludlu səma altında xalqına əl sallayan böyük rəhbərin obrazını bütün sevgisi ilə yaradan E.Mikayılzadə demək olar ki, qədim tarixi bölgələrin hər birindən kiçik bir fraqment alaraq bütövlüyü meydana çıxarmaqla əsərinin dəyərləndirməyi bacarmışdır. O, burada öndəri Azərbaycanın memarı, dahisi kimi göstərməyi uğurla bacarmışdır. Təsvirlər sadəcə ara sahədə deyil, eyni zamanda ana haşiyədə xalça elementlərindən olan zərif nəbati naxışlarla verilmişdir. Ənənəvi naxış elementlərinin aralıqlarında verilmiş Azərbaycanın bayrağı, gerbi, xəritəsi, hətta tarixi göstərən 1969-cu il, XXI əsr sanki naxış xüsusiyyətləri ilə birlikdə üslublaşdırılmış bəzək funksiyasını yerinə yetirərək fərqli xalça nümunəsinin meydana çıxmasına zəmin yaratmışdır.

Obraz təsvirlərinin yer alaraq müasir xalçalarda novatorluq və ənənənin birləşdiyinə uğurlu nümunələr sırasında Məmmədhüseyn Hüseynovun “Füzuli dünyası” adlı xalçasını göstərmək olar. Nümunədə diqqəti cəlb edən əsas məqam həll edilmiş süjetli-tematik kompozisiyalar milli ornamentlərlə böyük ustalıqla uyğunlaşdırılmasıdır. Gecəni əks etdirən arxa fon üzərində ağ libasda verilmiş Füzuli obrazının təmiz, parlaq dünyasını, narahat baxışlarını, başı üzərində dolaşan buludları onun poetik dünyasını izah edəcək şəkildə həyata keçirən rəssam onu yaratdığı obrazların arasında əhatəyə alınaraq zəngin

mənəvi aləmin, böyük daxili dünyanın qarışıq, sirli, sevgi və iztirab dolu mühitini ifadə edir. Xalçanın ana haşiyəsində sürməyi yerlik üzərində zərif ağ, qızılı, narıncı kimi rənglərlə verilmiş islimi naxışların təbiət elementləri, müxtəlif süjetli səhnələrlə sintezli şəkildə verilməsi yeni və fərdi yaradıcı üslubu əks etdirən xalça nümunəsini meydana çıxarmışdır.

M.Hüseynovun obraz təsvirlərin yer aldığı xalçalarda rəng həllindən başlayaraq, bəzək elementlərinədək bütün kompozisiyanın əsərin ruhuna məqsədinə xidmət edəcək şəkildə həyata keçirildiyi danılmazdır. Məsələn, Başqırdıstan Respublikasının birinci prezidenti Murtuza Rahimova həsr edilmiş xalçanın xüsusi olaraq ciddiyyəti ilə maraq oyadır. Burada rəssam bütün sahənin tünd çalarla verilməsinə əsas hesab etmişdir [3, s.7]. Ara sahəsində tirməyi rəngdə verilmiş bəzək elementlərinin əhatəsində asimmetrik şəkildə zolağı çərçivədə mavi yerlik üzərində siyasi xadimin portreti təsviri verilmişdir. Ana haşiyədə təbiətdən alınmış gül, budaq ornamentlərinin stilizə olunmuş formalarının bir-birinə axarlı keçidi xalçaya mükəmməllik, şuxluq bəxş edir. Bala haşiyələrdə xırda yarpaq və gül ornamentlərindən istifadə xalçanın bütün hissələrinin kompozisiya quruluşu ilə vəhdət təşkil edir.

İstedadlı xalçaçı-rəssam Münəvvər Hacıyevanın yaratdığı Əməkdar geoloq Nüsrət Xəlilovun portret xalçasının zəngin ornamentasiyası həm ara sahədə, həm də istərsə də haşiyələrdə zəngin xalça nümunəsini qarşımıza çıxardır. Obraz mavi fon üzərində həll edilmişdir. Alimin ciddi görkəmi, arxaya daranmış ağ saçları, kəskin nəzərləri onun ağır təbiətini, müdrikliyini əks etdirir. Portreti sanki çərçivəyə almış həndəsi elementlər incə, zərif naxışlarla xalçanı ciddiyyətin ağırlığından sanki xilas edir. Əsasən qızılı-qəhvəyi rəng dəyərlərindən istifadə bir-biri ilə sıx şəkildə dəstəkləyən ornament xüsusiyyətləri ilə fərqli və dolğun xalçanın meydana çıxmasına zəmin yaratmışdır. Təbriz xalçaçılıq ənənəsinin müəyyən qədər özünü göstərən təsirləri xalçanın əsasən haşiyə qisimlərində yer almışdır. Qarmaq, üslublaşdırılmış xırda çiçəklər və digər həndəsi naxışlarla verilmiş bəzəklər demək olar ki, bir-birinə yaxın rəng həlli ilə sistemli şəkildə sıralanmaqla sanki ardıcıllıqla portretin zəngin çərçivə elementini meydana çıxardır. Hansı ki, həmin çərçivə qədim Azərbaycan xalçalarında istifadə olunan bəzək xüsusiyyətlərinin əksi ilə diqqəti cəlb edir.

Xalçalarda obraz təsvirlər hər zaman realist təsvirlərin əksi ilə deyil, bir çox allarda rəssamın xəyali obraz və yaxud xalq dastanlarından, klassiklərin əsərlərindən alınma obrazlarla, miniatür təsvirlərlə də ənənəvi təsirlərin də sintezli həlli ilə olduqca maraqlı xalça kompozisiyaları ilə tamaşaçılarını heyrətləndirməyə davam edir. Məsələn, müasir dövrün görkəmli xalçaçı-rəssamları sırasında özünün fərqli kompozisiyalarla meydana çıxan xalça nümunələri ilə diqqət mərkəzində olan sənətkarlardan Aydın Rəcəbovun

"Münəccimlər", "Çövkən oynayan şahzadə", "Süvari dərviş" və digər əsərlərini göstərmək olar. Bu kimi yaradıcılıq nümunələrində rəssam əsasən ara sahədə süjetli təsvirlərə yer ayıraraq haşiyələrdə ənənəvi ornamentləri yeni formada stilizasiya edərək özünəməxsus xalçalara müəlliflik edir. "Münəccimlər" adlı xalça Osmanlı miniatür məktəbinin əsasında qurulmuşdur. Məzmun etibarı ilə XVI əsrə aid "Təkyüddün və münəccimlər rəsədxanada" əsərindən alınmış səhnədə iki obrazın qarşılıqlı təsviri zamanı orta əsrlər müsəlman türklərinin astronomiya elmi üzərində yeni kəşflə işarə edir. Qarşıya qoyulmuş fərqli ideyanın çatdırılmasında rəssamın qurduğu kompozisiya xalçanın bütün hissələri ilə sıx əlaqədə verilmişdir. Əsas hissədə pəncərə effektini yaradan düzbucaqlı elementin daxilində həll edilmiş ağ, qara, sarı və s. kimi rəngli düzbucaqlar həndəsi formalardan ibarətdir ki, xalçanın ana haşiyəsində onların çarpaz düzülüşü uyğun əlaqələndirməni meydana çıxardır.

"Çövkən oynayan şahzadə" xalça nümunəsinin Təbriz miniatür məktəbi və "Gəncə-Qazax" məktəbinin dekorativ elementləri əsasında həyata keçirildiyini qeyd etmək olar. Orta əsrlər xalqın milli folklor və ənənələrindən olan çövkən oyunundan kiçik fraqmentin verilməsində sənətkar əsas səhnənin daha ifadəli görünməsi məqsədilə mürəkkəb ornamentlərin əvəzinə dekorativləşdirilmiş semantik məna daşıyan həndəsi formalardan istifadəni xüsusi olaraq məqsədəuyğun hesab etmişdir. Əsasən qəhvəyi tonlarla yerinə yetirilmiş xalçanın ara sahəsində verilmiş səhnə özünün dinamikliyi, təbiət təsvirləri ilə maraq oyatdığı qədər, rəssamın şəxsinə aid yeni forma və ornamentasiya xüsusiyyətinə bağlı olaraq birinci ana haşiyədə düz xətlərlə deyil, kəsiklərlə güzgü simmetriyası əsasında həyata keçirilmişdir. Burada qarmaq, düzbucaqlı, toraoxşar naxışlar və digər həndəsi elementlərlə meydana çıxan yeni bəzək kompozisiya ilə maraq oyadır. Digər ana haşiyədə noxudu yerlik üzərində qəhvəyi rəngdə həll edilmiş bir-biri ilə çarpazlaşan düz xətlərin bütünlükdə ara sahəni haşiyələməsi səhnə ilə birlikdə yeni və özünəməxsus stilin meydana çıxmasına əsas yaratmışdır.

A.Rəcəbovun yaratdığı "Süvari dərviş" adlı xalçasında da dərvişin simasındakı nikbinlik xoş ifadə, digər elementlər və xalçanın fərqli hissələri ilə yaradılmış kompozisiya bütövlüyü böyük maraq oyadır. Bəzən XIX əsrin sonlarında Azərbaycanın bir çox bölgələrində xalçaçılıq sənətində yaranmış "Atlı-itli", "İtli-atlı" kimi çeşnilərində verilmiş süjetlərə müraciət edən sənətkarın əsərlərində konkret olaraq hər hansı bir məktəbin ənənələrinə əsaslandığını tam qeyd etmək olmaz təbii ki. Lakin həmin məktəblərin rəssamın yaradıcılığındakı rolunu əsaslı şəkildə görmək mümkündür. Məsələn qeyd olunanlara parlaq misal olaraq "Süvari dərviş" xalçasını qeyd etmək olar. Yaradıcılıq nümunəsi "Abşeron" motivləri əsasında qurulmuşdur. At üzərində gedən dərvişin təsvirini verən səhnə müxtəlif element və ornamentlərin

vasitəsilə sadəcə dekorativ mahiyyət daşımayaraq, eyni zamanda əlaqələndirilmiş şəkildə süjetin məzmun açıqlamasında da öz əhəmiyyətini göstərir. Qarmaq, romb, dördbucaqlı kimi həndəsi formaları bulud, torpaq, kol kimi təsvirlərə çevirməyi məharətlə bacaraq sənətkar yaratdığı obrazı uca bir tağın altından keçərkən tərənnüm etmişdir. Həmin tağ təbiətdən alınma naxışların əsasında qurulmaqla kompozisiya bütövlüyünü meydana gətirir.

Xalçalarda obraz təsvirləri və ənənəvilik üzərindəki araşdırmalar müasir dövrümüzdə fəaliyyət göstərən rəssamların hər birinin yaradıcılığında özünün fərqli bədii formaları, kompozisiya seçimi ilə, kolorit həlli ilə fərdiyyət yaratdığının hər dəfə yenidən təsdiq edir.

## Ədəbiyyat siyahısı:

1. Camalqızı G. Xalçaçılıq sənətinin gözəlliyi və sirləri: Xalçalarda nəsillərin bir-birinə ötürdüyü kodlaşmış ornamentlər, xalqın təfəkkürü və tarixi gizlənir // Ekran-efir. – 2012, – 16 noyabr. – s. 27
2. Əliyev Z. Xalçaçı rəssam ümummilli lider Heydər Əliyevin xatirəsinə ithaf edilmiş möhtəşəm xalça toxumuşdur: [Hacı Eldar Mikayılzadə] // İki Sahil. –2013. – 8 yanvar. – s.9.
3. Bünyadov T. Xalça sənəti – şah əsərimiz!... // 525-ci qəzet. – 2014. – 2 dekabr. – s.7.

**Махизер Байрамали кызы Магеррамова**

## ИЗОБРАЖЕНИЯ ОБРАЗОВ НА СОВРЕМЕННЫХ АЗЕРБАЙДЖАНСКИХ КОВРАХ И ТРАДИЦИОННОСТЬ

**Резюме:** В статье раскрываются основные художественные особенности композиций, связанных с изображением образов в творчестве современных ковровщиков. Также в статье была дана конкретная информация о традиционных особенностях узорных композиций национального орнамента в различных формах, влиянии азербайджанских ковровых школ на наших ковроделов. С этой целью ведется краткий анализ следующих работ: «Портрет Г.Алиева» К.Алиева, «Г.Алиев» Э.Микаилзаде, «Мир Физули» М.Гусейнова, «Портрет геолога на пенсии Нусрата Халилова» М.Гаджиевой, «Звездочёты», «Принц» А. Раджабова и др.

**Ключевые слова:** ковер, художник, орнамент, элемент, узор, композиция, традиционный

**Mahizar Bayramali gizi Maharramova**

# THE IMAGE DESCRIPTIONS AND TRADITIONAL NATURE IN MODERN AZERBAIJANI CARPETS

**Summary:** In the article the main artistic features of the compositions solved with images in the works of modern carpet artists are investigated. The concrete information about the traditional features, the manifestation of national ornament and pattern compositions in various forms, the impact of Azerbaijani carpet schools on our carpet weavers is given. For this purpose, the laconic analysis carried out on the works such as “H.Aliyev’s portrait” by K.Aliyev, “H.Aliyev” by E.Mikayilzade, “Fuzuli’s world” by M.Huseynov, “Portrait of Honored geologist Nusrat Khalilov” by M.Hajiyeva, “Astrologers”, “Prince playing “chovgan” by A.Rajabov, etc. made the content of the article more interesting.

**Key words:** carpet, artist, ornament, element, pattern, composition, traditional

**Məqalənin redaksiyaya daxil olma tarixi: 08.09.2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**